# *FƏLSƏFƏ, SOSİOLOGİYA VƏ PSİXOLOGİYA ELMLƏRİ*

## Sosializasiya prosesində gənclərin sosiallaşma səviyyəsinin nəzəri əsasları

**Mehriban İsmayılova**
*Azərbaycan Dövlət Pedaqoji Universitetinin*
*Yaş və pedaqoji psixologiya kafedrasının*
*dosenti*
**E-mail:** mehriban_ismayilova_1962@mail.ru

**Rəyçilər:** p.ü.f.d., dos. Z. Əliyeva,
psixol.ü.f.d., dos. N. Rzayeva

**Açar sözlər:** sosiallaşma, normativlik, özünüaktuallaşdırma, özünüdərk, adaptasiya, həssaslıq

**Ключевые слова:** социализированность, нормативность, самоактуализация, самопознание, адаптация, чувствительность

**Key words:** socialization, standardization, self-actualization, self-understanding, adaptation, sensitivity

Gənclik yaş dövründə insanın inkişafı həmişə pedaqoq və psixoloqların diqqətini cəlb etmişdir. Müasir dövrdə sosiallaşma şəraitində gənclərin sosiallaşması onun bir şəxsiyyət, fərdiyyət və subyekt kimi funksionallaşmasına zəmin yaradır. Sosiallaşma prosesində gənclərin sosiallaşmasının özünəməx-susluğu ondadır ki, gənclər müəyyən sosial qruplarda yaşlılarla və həmyaşıdları ilə qarşılıqlı münasibətdə və ünsiyyətdə müəyyən yeni funksiyaları yerinə yetirirlər. Gənclər fəaliyyətin müxtəlif ictimai əhəmiyyətli növlərinə daxil olmaqla ünsiyyət dairələrini genişləndirir, sosial dəyərləri mənimsəyir və şəxsi əxlaqi keyfiyyətlərini formalaşdıraraq sosiallaşırlar.

Bu yaş dövründə gənc həmyaşıdları ilə ünsiyyətdən məmnunluq hissi duyur və özünü təsdiq edir. Tələbatını ödəməklə sosiallaşan gənc təbiət və cəmiyyətdə baş verən hadisələrə müxtəlif baxışlar əldə edir, dəyər, əxlaq və davranış qaydalarına yiyələnir. Sosiallaşmanı şəxsiyyətin tam inteqral prosesi kimi təsəvvür edən Amerika sosioloqlarından: T.Parsons və R.Mertonun fikrincə, sosiallaşmanın gedişində, struktur-funksional istiqamətdə sosiallaşma və uyğunlaşma baş verir. Belə ənənəvi məktəbdə sosiallaşma adaptasiya anlayışı vasitəsi ilə aydınlaşdırılır. Adaptasiya anlayışının köməyi ilə sosiallaşma gəncin sosial mühitə daxil olub mədəni, psixoloji və sosial amillərə uyğunlaşması kimi nəzərdən keçirilir. Sosiallaşma prosesində gənc özünü nümunə göstərir, müxtəlif sosial rolları yerinə yetirir, bununla da özünü təzahür etdirə bilir. Sosial rolların yerinə yetirilməsi dinamikasında gənc sosial aləmə daxil olmaqla ətrafındakı insanlarla qarşılıqlı münasibətlərinə dair şəxsi təsəvvürlərini əldə edə bilir.

A.V.Mudrik sosiallaşmanın hər bir mərhələsində gənclərin sosiallaşmasına xidmət edən həll edəcəkləri üç qrup vəzifələri müəyyən etmişdir: təbii-mədəni, sosial-mədəni və sosial-psixoloji (1). *Təbii-mədəni vəzifələr* gənclik yaş dövründə gənclərin fiziki və seksual

inkişafının müəyyən səviyyəsindəki uğurları ilə bağlıdır ki, onlar bu və ya digər ərazi-mədəni şəraitdə normativlərdəki fərqliliklərlə xarakterizə olunur. Gənc bu vəzifələri yerinə yetirməklə özünü cəmiyyətdə statusunu müəyyən edir və sosiallaşır.

*Sosial-mədəni vəzifələr* idraki, əxlaqi-mənəvi, dəyər kimi vəzifələr olub tarixi sosiumda gənclik yaş mərhələsi üçün spesifikdir. Bu vəzifələri yerinə yetirməklə gənc əxlaqi-mənəvi keyfiyyətləri özündə əxz edir, sosial norma və dəyərləri mənimsəyir, fəallıq göstərərək sosiallaşır.

*Sosial-psixoloji vəzifələr* gənclərin özünüdərki, özünüreallaşdırması, özünütəyini, özünüaktuallaşdırması ilə bağlıdır ki, o, psixoloji məzmuna və onlara nail olmaq üsullarına malikdir. Belə ki, gənc mənsub olduğu sosial qruplarda onu əhatə edən insanlarla qarşılıqlı təmasa daxil olur, özünü yaşlılar və həmyaşıdları arasında təsdiq edir, sosiallaşaraq öz "Mən konsepsiyası"nı təzahür etdirir. Tərbiyə prosesində adları çəkilən vəzifələrin həlli gənclərin şəxsiyyətinin inkişafını və onların sosiallaşmasının zəruriliyini təmin edir. Əgər hər hansı qrupdan olan vəzifələr sosiallaşmanın bu və ya digər mərhələsində həll edilməmiş qalarsa, o gəncin sosiallaşmasının ləngiməsinə səbəb olar. Psixoloji tədqiqatların təhlili sosiallaşma prosesində gənclərin sosiallaşaraq üç komponenti müəyyən etməyə imkan vermişdir: idraki, dəyər-istiqamətlənmə və fəaliyyətli.

*İdraki komponent* — sosial münasibətlərdə gəncin biliklərin və sosiumda onun həyatı üçün zəruri olan bacarıqların əldə etməsini nəzərdə tutan, habelə dünyanın mənzərəsinin obrazını fikir və təsəvvürlərində yaradılmasına yönəldilən komponentdir. Gənc sosial qruplarda və cəmiyyətdə sosiallaşaraq həmin idraki komponentləri mənimsəyir, təlim-tərbiyə prosesində onlardan zəruri hallarda istifadə edir.

*Dəyər-istiqamətlənmə komponenti* — gənclərin şəxsi sosial təcrübəyə dair informasiyaları alması və ona şəxsi münasibətinin formalaşması ilə nəticələnir. Bu komponentə ictimai davranış qaydalarına, başqa adamların sosial normalarına və davranış formalarına yiyələnmək, onlara riayət etmək qabiliyyəti aid edilir. Bu komponentlərin birgə fəaliyyətində gənc sosiallaşır və müsbət əxlaqi sosial keyfiyyətlərə yiyələnir və onları dəyərləndirir. Deməli, sosiallaşma prosesində bu komponentin mahiyyəti ondan ibarətdir ki, gənc sosial normaları və rolları mənimsəyir, habelə fəaliyyətin məzmununu başa düşüb onun sosial əhəmiyyətliliyini dəyərləndirir və ona doğru istiqamətlənir.

*Fəaliyyətli komponentin* əsasında dəyər sisteminə əsaslanan sosial fəaliyyət sistemində gəncin fəallığı özünü göstərir. Bu komponent gənci fəaliyyətə təhrik etməklə şəxsi sosial təcrübə əldə etməyi nəzərdə tutur, həmçinin öz şəxsiyyətini subyekt qismində təzahür etdirməyə və gəncin özünü təkrarolunmaz fərdiyyəti kimi formalaşdırmağa, təlim-tərbiyə prosesində adaptasiya olmağa və sosiallaşmağa imkan verir.

Yuxarıda göstərilən funksional komponentlər sistemi sosiallaşma prosesində gəncin sosiallaşması ilə sıx bağlıdır. Gəncin sosiallaşmasının tam və obyektiv sistemi onun komponentlərinin birliyinə gətirib çıxarır. Bir sözlə, sosiallaşmanın nəticəsi olan sosiallaşma dedikdə, cəmiyyətin tələblərinə və statusuna cavab verən keyfiyyətlərin necə formalaşdığı başa düşülür. Sosiallaşmaya gənclərin şəxsi və sosial keyfiyyətlərin mənimsənilməsi də daxildir. Sosiallaşmış gənc sosial cəhətdən yetkindir. Sosiallaşma “sosial yetkinlik” termini adı altında konkret sosiomədəni konteksdə insanda sosial keyfiyyətlərin inkişaf dərəcəsi kimi başa düşülür. A.İ.Kravçenko şəxsiyyətin sosiallaşmasını (sosial yetkinliyi) sosial-əxlaqi keyfiyyətlərin: əməksevərliyin, borc hissinin, ictimai şüurluluq və aktivliyin, qanuna riayət etmənin yüksək dərəcədə inkişafı ilə müəyyən etmişdir. Digər alimlər isə şəxsiyyətin sosiallaşmasının (sosial yetkinliyin) əsas meyarlarını özünəhörmətlə, başqa adamlara, təbiətə

qayğı və hörmətlə proqnozlaşdırmağı bacarmaqda, həyata yaradıcı yanaşmada, kreativlikdə ifadə edirlər. Bir sözlə, sosiallaşmış gənc odur ki, o, yaşadığı cəmiyyətin əxlaqi norma və qaydalarını qəbul edib mənimsəsin, mənəviyyatca formalaşsın. Uğurlu sosiallaşma bir tərəfdən cəmiyyətə konformluq bacarığını, digər tərəfdən isə əxlaqi dəyərlərdən uzaqlaşma meylinə qarşı möhkəm durmağı nəzərdə tutur.

A.V.Mudrik sosializasiya prosesində uğurlu sosiallaşmanı təmin edən şəxsiyyəti belə xarakterizə etmişdir: universal mənəvi dəyərlərin başa düşülməsinə yönəldilmiş, sosial rola seçici münasibət zamanı özünün dəyərləri və tələbləri arasında balans yaratmaq bacarığı (1).

Sosiallaşma prosesində gənclərin sosiallaşması səviyyələrinin aşağıdakı xarakteristikasını müəyyən etdik:

*Birinci səviyyə aşağı səviyyədir.* Bu səviyyəyə idraki fəaliyyətin aşağı motivasiyası, potensial imkanlarının reallaşmasında passivlik, qeyri-təşəbbüskarlıq, sərvət dəyərlərində nizamsızlıq, davranışda qeyri-adekvat vasitələrin üstünlüyü, şəxsi hisslərini ifadə edə bilməmək, emosional gərginlik, davranışın böyüklər və başqaları tərəfindən tənzimlənməsi, həyati fəaliyyətin reproduktiv xarakteri aiddir. Bütün bunlarla yanaşı olaraq birgə fəaliyyətdə şəxsiyyətlərarası biliklərə zəif yiyələnmə, yaşlılarla və həmyaşıdları ilə münasibət yaratmağa qeyri-şüurlu yanaşma, habelə sinifdaxili əlaqələrdə çətinliklər: sosial hadisələrə münasibətdə tədqidilik, münasibət qura bilməmək, həmyaşıdları arasında öz mövqeyində möhkəm durmağa cəhd etmək, sosial normalar çərçivəsindən çıxış edərək birgə fəaliyyətdə və qarşılıqlı münasibətlərdə qiymətləndirmənin olmaması və s. aiddir. Məsələn, Çingiz (16 yaş) çox çətinliklə dəyişən mühitə adaptasiya olunur, tez-tez sinif yoldaşları ilə mübahisə edir, sinfin ictimai işlərində qeyri fəaldır. Başladığı işi sona çatdıra bilmir, müstəqil qərarların qəbulunda, hisslərini ifadə etməkdə çətinlik çəkir. Çingizdə passivlik və tənbəllik dominantlıq təşkil edir. Onun sinifdəki fəaliyyəti yoldaşları tərəfindən tənzimlənir. Deməli, Çingizdə sosiallaşma aşağı səviyyədədir.

*İkinci səviyyə orta səviyyədir.* Bu səviyyəyə situativ motivasiya və idraki fəaliyyətin əhəmiyyətliliyi, idraki maraq və qabiliyyətləri reallaşdırma axtarışı, sərvət dəyərlərinin kifayət qədər sabit olmaması, mənəvi ideal axtarışına cəhd göstərmə, davranışın daxilən tənzimlənməsində situativliyin təzahürü, şəxsi hisslərin ifadəsində situativ idarəçilik, həssaslıq, həyati fəaliyyətin produktiv xarakteri aiddir. Bütün sadalananlarla yanaşı sosial norma və qaydaların mənimsənilməsi əsasında münasibətlərin tənzimlənməsinə seçici münasibət, müvafiq situasiyalara bələdləşmə bacarığı, habelə sosial mövqeyini, baxışlarını bildirmək, şəxsi və birgə fəaliyyəti qiymətləndirmək xarakterikdir. Bu səviyyədə gənc sosial münasibətlərdə biliklərə idraki fəallığını təzahür etdirir. Məsələn, Şəfəq (17 yaş) öz sinif yoldaşları və müəllimləri ilə ünsiyyətcildir, mübahisələrdə, diskussiyalarda şəxsi fikirlərində inadlıdır. Təlim fəaliyyətində kifayət qədər müvəffəqiyyətlidir, başladığı işi başa çatdırmağa cəhd edir. Çətin situasiyalarda (ünsiyyətdə, riyazi tapşırıqların həllində), müstəqil qərarların qəbulunda çətinlik çəkir, yoldaşlarından və müəllimlərdən kömək üçün onlara tez-tez onlara müraciət edir, çox həssasdır. bu qızın davranışının daxilən tənzimlənməsində situativlik özünü göstərir. Deməli, Şəfəqdə sosiallaşma orta səviyyədədir.

*Üçüncü səviyyə yüksək səviyyədir.* Bu səviyyə üçün idraki fəaliyyətin sabit və yüksək motivasiyası, təşəbbüskarlıq, işə yaradıcı yanaşmaq arzusu, kreaitivlik, emosional sabitlik, empatiya, fərdi qanunauyğunluqlarla ifadə olunmuş sərvət dəyərlərinin iyerarxik strukturu, uğura istiqamətlənmə, hərəkət və davranışların nəticəsini qabaqcadan görə bilmək xarakterikdir. Gənclərin bu səviyyədə sosial normalarla və münasibətlərlə bağlı biliklərə cəhdi ifadə olunur, gənclər böyüklərlə və həmyaşıdları ilə ünsiyyət normalarını mənimsəyir,

münasibətləri tənzimləmək bacarıqlarını təzahür etdirir, habelə həmyaşıdları arasında özlərini təsdiq edir, konkret kommunikativ situasiyalarda müvafiq insanlarla birfə fəaliyyətdə olur, hərəkətlərini qiymətləndirir, davranışını korrektə edir. Bir sözlə, birgə fəaliyyətdə və ünsiyyətdə özünütənzimetmənin yüksək səviyyəsinə yiyələnir. Məsələn, Tofiqədə (17 yaş) sosiallaşma çox yüksəkdir: o həmyaşıdları və böyüklərlə ünsiyyətdə çox fəaldır, yeni tanışlıqlara cəhd göstərir, konfliktlərdən uzaq qaçır, müxtəlif dərnəklərə gedir. Tofiqədə sosiallaşma səviyyəsi çox yüksəkdir.

Yuxarıda göstərilən sosiomədəni sosiallaşma fərdin öz idraki maraqlarını dərk etməsi, ümuminsani dəyərlərə şəxsi baxışlar və onları dəyişmək qabiliyyəti, habelə emosional-mənəvi bağlılıqda seçiciliyin reallaşması, həmçinin yaş və fərdi psixoloji xarakteristikada onun sabitliyinin və ya dəyişkənliyinin qeydə alınması öz əksini tapmışdır. Tamamlanmamış xarakter ondan irəli gəlir ki, birincisi, sosiallaşma həmişə "mobildir". Formalaşmış sosiallaşma da vardır ki, o da müxtəlif vəziyyətlərlə bağlı olub qeyri-obyektiv ola bilər. İkincisi, sosiallaşma prosesinin tamamlanmamış prinsipinə görə, hər bir fərddə ətraf aləmlə bioloji münasibətlərdə dəyişməyə və ya özünüdəyişdirməyə və yüksək səviyyədə cəmiyyətdə sosiallaşmağa meyllilik vardır.

Apardığımız psixoloji tədqiqatın nəticələri göstərir ki, kolleclərdə təhsil alan gənclərdə orta və yüksək səviyyədə sosiallaşma üstünlük təşkil etmişdir. Bir sözlə, gənclərin sosial varlıq kimi cəmiyyətdə sosiallaşmasına özünüdərk, "şəxsi Mən", başqa adamlarla qarşılıqlı münasibət, habelə ictimai birliklərdə biliklərin üstünlüyü, ayrı-ayrı sosial institutlarda onların funksiyaları, ictimai əhəmiyyətli dəyər və normaların mənimsənilməsi, sosial yönəlişlik və sərvət dəyərlərinin formalaşması, praktiki vərdişlərin qazanılması və konkret fəaliyyətdə onların reallaşması aid edilir. Sosiallaşma prosesində gənclər sosiallaşaraq adaptasiya, inteqrasiya, özünüinkişafa və özünüreallaşmaya nail olurlar. Onların birliyi ətraf mühitdə, birgə fəaliyyətdə gəncin uğurlu sosiallaşmasını təmin edir.

Bir sözlə, ideal baxımdan sosiallaşmış gənc sosial tələblərə uyğun cəmiyyətdə hərəkət etməli, həyati situasiyaların inkişafında gedən neqativ hallara və onun fəaliyyətinin inkişafını ləngidən meyllərə qarşı durmağı bacarmalıdır.

**Məqalənin aktuallığı.** Sosiallaşma prosesində sosiallaşmış gənz yaşadığı cəmiyyətin əxlaqi norma və qaydalarını mənimsədikcə daha yüksək səviyyədə sosiallaşır və mənəviyyatca formalaşır.

**Məqalənin elmi yeniliyi.** Sosiallaşma prosesində gənclərin sosiallaşma səviyyəsinin nəzəri əsasları işlənilmişdir. Sosiallaşmanın hər bir mərhələsində gənclərin sosiallaşmasına xidmət edən vəzifələr araşdırılmışdır.

**Məqalənin praktik əhəmiyyəti və tətbiqi.** Məqalədən ali və orta ixtisas məktəblərinin müəllimləri, tələbələr, magistrantlar və doktorantlar istifadə edə bilərlər.

## Ədəbiyyat

1. Мудрик А.В. Социализация человека: Учебное пособие для студ. выс. учеб. Завудений. М.: Изд-кий центр «Академия», 2006.

2. Гамев З.П. Теоретико-методические аспекты социализации личности. Казан: Изд-во КФЭИ, 1998.

3. Горбунова М.Ю. Социальная психология / М.Ю.Горбунова. М.: Изд-во ВЛАДОС-ПРЕСС, 2006.

**М. Исмаилова**

## Теоретические основы уровень социализарованности молодежи


## Резюме

В научной статье разработаны теоретические основы уровень социализированности молодежи в процессе социализации. Исследованы задачи, служащие социальности молодежи на каждом этапе социализации. Автор справедливо отмечает, что полная и объективная система социализи-рованности молодежи приводит к единству ее компонентов.


**M. Ismayilova**

## Theoretical foundations of the level of socialization of youth in the process of socialization


## Summary

In the scientific article has been processed theoretical foundations of level of socialization of youth in the process of socialization. At every stage of socialization has been explored positions which serving socialization of youth. The author notes honestly that a complete and objective system of youth socialization leads to unity of its components.


**Redaksiyaya daxil olub:** 05.02.2019